# AVROPA ŞURASI
NAZİRLƏR KOMİTƏSİ

## Avropa İnsan Hüquqları Məhkəməsinin qərarlarından sonra ölkədaxili səviyyədə müəyyən işlərə yenidən baxılması və ya icraatın bərpa olunması haqqında Nazirlər Komitəsinin üzv dövlətlərə R (2000)2 saylı Tövsiyəsi[1]

*(Nazirlər Komitəsi tərəfindən 19 yanvar 2000-ci ildə nazirlərin nümayəndələrinin 694-cü iclasında qəbul edilib)*

Nazirlər Komitəsi, Avropa Şurasının Nizamnaməsinin 15-ci maddəsinin b bəndinin müddəalarına uyğun olaraq,

Avropa Şurasının məqsədinin öz üzvləri arasında daha sıx birliyə nail olmaq olduğunu nəzərə alaraq;

İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Konvensiyanı (bundan sonra "Konvensiya") nəzərə alaraq;

İnsan hüquqları və əsas azadlıqlar haqqında Konvensiyanın ("Konvensiya") 46-cı maddəsinə əsasən, Razılığa gələn Tərəflərin iştirakçısı olduqları hər bir işdə Avropa İnsan Hüquqları Məhkəməsinin ("Məhkəmə") yekun qərarına riayət etmək öhdəliyini qəbul etdiklərini və Nazirlər Komitəsinin onun icrasına nəzarət etdiyini qeyd edərək;

Müəyyən hallarda yuxarıda göstərilən öhdəliyin Konvensiyanın 41-ci maddəsinə uyğun olaraq Məhkəmə tərəfindən müəyyən edilmiş ədalətli təzminatdan savayı digər tədbirlərin görülməsinə və/və ya zərərçəkmiş tərəfin Konvensiyanın pozulmasından əvvəlki vəziyyətinin mümkün qədər bərpa olunmasını (*restitutio in integrum*) təmin edən ümumi tədbirlərin görülməsinə səbəb ola biləcəyini nəzərə alaraq;

Milli hüquq sistemində mövcud olan vasitələr nəzərə alınmaqla əvvəlki vəziyyətin bərpasına (*restitutio in integrum*) nail olmaq üçün hansı tədbirlərin daha məqsədəuyğun olduğuna dair qərar verməyin cavabdeh dövlətin səlahiyyətli orqanlarına aid olduğunu qeyd edərək;

---

* Azərbaycan dilinə qeyri-rəsmi tərcümə ingilis dilindəki orijinal mətnin əsasında icra olunmuşdur. Mətn Avropa Şurasının icazəsi ilə tərtib və istifadə edilmişdir. Bu sənəd Avropa Şurası ilə razılaşma əsasında, lakin yalnız tərcüməçinin(lərin)/naşirlərin məsuliyyət daşıması ilə dərc olunur. Mətnin tərcüməsi Avropa Şurasının "Avropa Məhkəməsi qərarlarının Azərbaycan tərəfindən icrasının gücləndirilməsinə dəstək" layihəsi çərçivəsində həyata keçirilmişdir.

[1] Nazirlər Komitəsinin Konvensiyanın keçmiş 32-ci maddəsi üzrə məhkəmə tipli funksiyalarının yaxın gələcəkdə dayandırılacağı nəzərə alınaraq, burada Nazirlər Komitəsinin qərarlarından bəhs edilmir. Bununla belə, başa düşülür ki, əgər tövsiyə qəbul edildiyi zaman bəzi işlər hələ də baxılmaqdadırsa, bu tövsiyənin prinsipləri belə işlərə də şamil olunacaq.

Lakin Nazirlər Komitəsinin Məhkəmənin qərarlarının icrasına nəzarət praktikasının müstəsna hallarda işə yenidən baxılmasının və ya icraatın bərpa olunmasının əvvəlki vəziyyətin bərpasına nail olmaq üçün ən səmərəli və bəzən hətta yeganə vasitə olduğunu nümayiş etdirdiyini nəzərə alaraq,

I. Bu mülahizələrin işığında Razılığa gələn Tərəfləri mümkün qədər əvvəlki vəziyyətin bərpasına nail olmaq üçün milli səviyyədə adekvat imkanların olmasını təmin etməyə dəvət edir;

II. Razılığa gələn Tərəfləri konkret olaraq Məhkəmənin Konvensiyanın pozulduğunu müəyyən etdiyi hallarda, xüsusən də aşağıdakı hallarda işə yenidən baxılması, o cümlədən icraatın bərpa olunması üçün adekvat imkanların mövcudluğunu təmin etmək məqsədilə öz milli hüquq sistemlərini nəzərdən keçirməyə təşviq edir:

i. zərərçəkmiş tərəf müvafiq ölkədaxili qərarın çox ciddi mənfi nəticələrindən zərər çəkməkdə davam etdikdə, bu nəticələri ədalətli təzminat adekvat şəkildə aradan qaldırmadıqda və əvvəlki vəziyyətin bərpası işə yenidən baxılmasından və ya icraatın bərpasından savayı başqa cür mümkün olmadıqda; və

ii. Məhkəmə öz qərarında aşağıdakı nəticəyə gəldikdə:

*a.* mübahisələndirilən ölkədaxili qərar mahiyyəti üzrə Konvensiyaya ziddir; və yaxud

*b.* aşkar edilmiş pozuntu prosessual səhvlərə və ya çatışmazlıqlara əsaslanır ki, bu da barəsində şikayət edilən ölkədaxili icraatın nəticəsi ilə bağlı ciddi şübhə yaradır.

*İZAHEDİCİ MEMORANDUM*

*Giriş*

1. Konvensiyanın Razılığa gələn Tərəfləri Nazirlər Komitəsinin nəzarətinin olması şərti ilə Konvensiyanın 46-cı maddəsində nəzərdə tutulmuş “Məhkəmənin onların tərəf olduqları işlər üzrə qəti qərarını icra etmək” öhdəliyinə necə əməl edəcəklərini öz mülahizələri əsasında müəyyən edirlər.

2. Məhkəmə qərara alıb ki: “Məhkəmənin pozuntunu müəyyən etmiş qərarı cavabdeh dövlətin üzərinə pozuntuya son qoymaq və onun nəticələrini pozuntuya qədər mövcud olmuş vəziyyəti mümkün qədər bərpa edəcək dərəcədə aradan qaldırmaq öhdəliyi qoyur” (bax: Məhkəmənin *Papamichalopulos Yunanıstana qarşı* iş üzrə 31 oktyabr 1995-ci il tarixli qərarı, 34-cü bənd, A seriyası 330-B). Məhkəmə bu qərarında Nazirlər Komitəsi tərəfindən qətnamələrində tez-tez tətbiq edilən *restitio in integrum* (pozuntuya qədərki vəziyyətin bərpası) adlı tanınmış beynəlxalq hüquq prinsipini ifadə etmişdir. Bu kontekstdə zərərçəkmiş tərəf üçün əvvəlki vəziyyətin bərpasını təmin etməkdən ötrü milli hüquq sistemlərində imkanların təkmilləşdirilməsinin zəruriliyi getdikcə daha aydın görünür.

3. Konvensiyada Razılığa gələn Tərəflərin üzərinə öz milli qanunvericiliklərində işə yenidən baxılmasını və ya icraatın bərpasını nəzərdə tutmaq öhdəliyi qoyan heç bir müddəa olmasa da, bu cür imkanların mövcudluğunun xüsusi hallarda əhəmiyyətli olduğu öz təsdiqini tapmış və hətta bəzi hallarda bunun əvvəlki vəziyyətin bərpasına nail olmağın yeganə yolu olduğu müəyyən edilmişdir. Getdikcə daha çox sayda dövlətlər işlərə bu cür yenidən baxılmasının və ya icraatın bərpasının mümkünlüyünü nəzərdə tutan xüsusi qanunvericilik qəbul ediblər. Digər dövlətlərdə bu imkan mövcud qanunvericiliyə uyğun olaraq məhkəmələr və milli hakimiyyət orqanları tərəfindən işlənib hazırlanmışdır.

4. Hazırkı Tövsiyə bu inkişafın nəticəsidir. O, bütün Razılığa gələn Tərəfləri öz hüquq sistemlərində mümkün qədər əvvəlki vəziyyətin bərpasına nail olmaq üçün lazımi imkanların olmasını təmin etməyə və xüsusən də işlərə yenidən baxılması, o cümlədən icraatların bərpa olunması üçün adekvat imkanları təmin etməyə dəvət edir.

5. Terminlərə gəldikdə, Tövsiyədə ümumi termin kimi “yenidən baxma” ifadəsindən istifadə olunur. “İcraatın bərpa olunması” termini işə yenidən baxılmasının xüsusi üsulu kimi məhkəmə icraatının yenidən açılmasını bildirir. Konvensiyanın pozuntuları işə inzibati qaydada yenidən baxılmasından (məsələn, əvvəllər imtina edilmiş yaşayış icazəsinin verilməsindən) tutmuş məhkəmə icraatının tam bərpasına qədər (məsələn, cinayət məsuliyyətinə cəlb olunma işləri üzrə) müxtəlif tədbirlər vasitəsilə aradan qaldırıla bilər.

6. Tövsiyə ilk növbədə elə işlər üzrə məhkəmə icraatlarına aiddir ki, mövcud qanunvericilik həmin işlər üzrə yeni icraatlara başlanılmasına daha çox maneələr yaradır. Bununla belə, tövsiyə inzibati və ya digər tədbirlərə və ya icraatlara da şamil edilir, hərçənd ki, bu cür hüquqi maneələr adətən bu sahələrdə daha az əhəmiyyətli olur.

7. Aşağıda, birincisi, tövsiyənin nəticə hissəsinin iki bəndinə aid xüsusi şərhlər və ikincisi, tövsiyədə birbaşa bəhs edilməyən məsələlərə dair daha ümumi şərhlər verilir.

*Nəticə hissəsinin müddəalarına dair şərhlər*

8. 1-ci bənd Tövsiyədə öz əksini tapan, Konvensiyanın pozulmasının bütün qurbanlarının mümkün qədər əvvəlki vəziyyətin bərpası (*restitutio in integrum*) hüququna malik olmasını nəzərdə tutan əsas prinsipi müəyyən edir. Müvafiq olaraq, Razılığa gələn Tərəflər lazımi imkanların mövcud olmasını təmin etmək məqsədilə öz hüquq sistemlərini nəzərdən keçirməlidirlər.

9. 2-ci bənd indiyədək bunu etməmiş dövlətləri Məhkəmənin qərarlarının tam icrası üçün işlərə yenidən baxılması, o cümlədən ölkədaxili icraatların bərpa olunması imkanlarını təmin etməyə təşviq edir. Həmin bənddə həmçinin işlərə yenidən baxılmasının və ya icraatların bərpa olunmasının xüsusi əhəmiyyət kəsb etdiyi, bəzi hallarda əvvəlki vəziyyətin bərpasına nail olmaq üçün yeganə vasitə olduğu qeyd edilir.

10. Konvensiya orqanlarının təcrübəsi göstərir ki, ilk növbədə cinayət hüququ sahəsində işə yenidən baxılması, o cümlədən icraatın bərpa olunması daha böyük əhəmiyyət kəsb edir. Bununla belə, Tövsiyə cinayət hüququ ilə məhdudlaşmır, istənilən kateqoriyaya aid işləri, xüsusən də (i) və (ii) yarımbəndlərində sadalanan meyarlara cavab verən işləri əhatə edir. Bu əlavə meyarların məqsədi fərdin hüquqlarının təmin edilməsi və Məhkəmənin qərarlarının effektiv icrası məqsədlərinin *res judicata* ("artıq həll edilmiş işə təkrarən baxıla bilməz") doktrinasının əsasını təşkil edən prinsiplərdən, xüsusən də hüquqi müəyyənlik prinsiplərindən üstün olduğu müstəsna halları müəyyən etməkdir, baxmayaraq ki bu prinsiplər, şübhəsiz, mühüm əhəmiyyət kəsb edir.

11. (i) yarımbəndi zərərçəkmiş tərəfin ölkədaxili məhkəmə icraatının nəticəsi səbəbindən ədalətli təzminat yolu ilə aradan qaldırıla bilməyən çox ciddi mənfi nəticələrdən zərər çəkməkdə davam etdiyi vəziyyəti əhatə etmək üçün nəzərdə tutulub. Bu, xüsusilə uzunmüddətli həbs cəzasına məhkum edilmiş və Konvensiya orqanları "işə" baxarkən hələ də həbsdə olan şəxslərə aiddir. Bununla belə, o həm də digər sahələrə, məsələn, şəxsin müəyyən mülki və ya siyasi hüquqlarından əsassız olaraq məhrum edildiyi (xüsusilə fəaliyyət qabiliyyətini və ya hüquq subyektliyini itirdikdə və ya bunlar tanınmadıqda, müflisləşmiş elan edildikdə və ya siyasi fəaliyyətinə qadağalar qoyulduqda), ailə həyatının qorunması hüququ pozulmaqla ölkədən çıxarıldığı və ya uşağın valideynləri ilə əlaqəsinin əsassız olaraq qadağan edildiyi hallara tətbiq edilir. Belə hesab edilir ki, aşkar edilmiş pozuntu ilə zərərçəkmiş tərəfin davam edən iztirabları arasında birbaşa səbəb-nəticə əlaqəsi olmalıdır.

12. (ii) yarımbəndi elə pozuntu növlərini göstərmək məqsədi daşıyır ki, həmin pozuntular baş verdikdə, yuxarıda göstərilən şərtlərə uyğun olan hallarda işə yenidən baxılması və ya icraatın bərpa olunması xüsusi əhəmiyyət kəsb edir. (a) bəndində nəzərdə tutulan hallara misal olaraq 10-cu maddənin pozuntusunu təşkil edən cinayət işi üzrə hökmləri göstərmək olar, belə ki, bu zaman milli hakimiyyət orqanları tərəfindən cinayət kimi xarakterizə olunan fikirlərin ifadəsi zərərçəkmiş tərəfin ifadə azadlığının qanuni şəkildə həyata keçirilməsini təşkil edir və yaxud da 9-cu maddənin pozuntusunu təşkil edən cinayət işi üzrə hökmləri göstərmək olar, belə ki, bu zaman cinayət kimi xarakterizə olunan davranış dini etiqad azadlığının qanuni şəkildə həyata keçirilməsini təşkil edir. (b) bəndində nəzərdə tutulmuş hallara misal olaraq, zərərçəkmiş şəxsin cinayət prosesində müdafiəsini hazırlamaq üçün vaxt və imkana malik olmadığı, ittiham hökmünün işgəncə altında alınmış ifadələrə və ya zərərçəkmişin yoxlamaq imkanına malik olmadığı materiallara əsaslandığı və yaxud mülki iş üzrə məhkəmə icraatında tərəflərin bərabərliyi prinsipinə lazımi qaydada riayət edilmədiyi halları göstərmək olar. Tövsiyənin mətnindən göründüyü kimi, hər hansı bu cür çatışmazlıqlar o qədər ciddi olmalıdır ki, ölkədaxili icraatın nəticələri ilə bağlı ciddi şübhə yaranmış olsun.

*Digər mülahizələr*

13. Tövsiyədə işə yenidən baxılması və ya icraatın bərpa olunması üçün vəsatət qaldırmaq səlahiyyətinin kimə verilməli olduğu probleminə toxunulmur. Tövsiyənin əsas məqsədinin Məhkəmə tərəfindən müəyyən edilmiş Konvensiyanın müəyyən ciddi pozuntularının qurbanlarının adekvat müdafiəsini təmin etmək olduğunu nəzərə alsaq, sistemin məntiqindən belə çıxır ki, maraqlı şəxslər lazımi vəsatətlə səlahiyyətli məhkəməyə və ya digər ölkədaxili orqana müraciət etmək hüququna malik olmalıdırlar. Lakin Razılığa gələn Tərəflərin fərqli ənənələri nəzərə alınaraq, Tövsiyəyə bu barədə heç bir müddəa daxil edilməyib.

14. Tövsiyədə "kütləvi işlərin" qaldırıldığı, yəni müəyyən struktur çatışmazlığının Konvensiyanın çoxlu sayda pozuntularına səbəb olduğu hallar kimi xüsusi problemə toxunulmur. Belə hallarda icraatın bərpa olunmasının və ya işlərə yenidən baxılmasının real həll yolu olub-olmaması və ya digər tədbirlərin məqsədəuyğun olub-olmaması ilə bağlı qərar vermək, prinsip etibarilə, ən yaxşısı, müvafiq dövlətə həvalə edilir.

15. Tövsiyənin layihəsini hazırlayarkən nəzərə alınmışdır ki, işlərə yenidən baxılması və ya icraatın bərpa olunması üçüncü tərəflər üçün, xüsusən də onlar hüquqları vicdanlı şəkildə əldə etdikdə, problemlər yarada bilər. Lakin bu problem işlərə yenidən baxılmasına və ya icraatın bərpa olunmasına dair adi ölkədaxili qaydaların tətbiqində də artıq mövcuddur. Bu işlərdə tətbiq edilə bilən həll yolları, ən azı müvafiq dəyişikliklərlə, Məhkəmənin qərarlarının icrası üçün işlərə yenidən baxılması və ya icraatın bərpa olunması barədə qərar verildiyi hallara da şamil edilməlidir.

Məhkəmənin müəyyən ədalətli təzminat təyin etmiş qərarından sonra işlərə yenidən baxıldığı və ya icraatın bərpa olunduğu hallarda bu təzminatın nəzərə alınıb-alınmaması və əgər nəzərə alınarsa, necə nəzərə alınmalı olması məsələsi hər bir işin konkret halları nəzərə alınmaqla səlahiyyətli yerli məhkəmələrin və ya hakimiyyət orqanların səlahiyyətində olacaq.